İnsanlara tez-tez borc verən bir adam var idi. O, xidmətçisinə (borcları toplayan) belə deyərdi: Borcunu qaytara bilməkdə çətinlik çəkən birinə getsən, onun borcundan keç. Bəlkə Allah da bizim günahlarımızdan keçər

Əbu Hureyradən - Allah ondan razı olsun - rəvayət edildiyinə görə, Allah Rəsulu - sallәllahu aleyhi va sәlləm - belə buyurmuşdur: "İnsanlara tez-tez borc verən bir adam var idi. O, xidmətçisinə (borcları toplayan) belə deyərdi: Borcunu qaytara bilməkdə çətinlik çəkən birinə getsən, onun borcundan keç. Bəlkə Allah da bizim günahlarımızdan keçər. Nəhayət o kişi Allaha qovuşdu və Allah da onun günahlarından keçdi".
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər - sallәllahu aleyhi va sәlləm - bu hədisdə insanlara borc verən və ya uzun müddətli ödəmə ilə satış edən bir adam barədə xəbər vermişdir. O, insanlardan borclarını toplayan xidmətçisinə belə deyərdi: İmkanı olmadığına görə bizə olan borcunu qaytara bilməyən kimsənin yanına borcu tələb etməyə getdiyində, alacağını almaqda israrlı olmayıb ona möhlət verməklə borcundan keç. Yaxud naqis olsa da verdiyini qəbul edib borcundan keç. O, bütün bunları Uca Allahın onun günahlarından keçərək əfv edib bağışlamasını ümid edərək etmişdir. Bu adam vəfat etdiyində, Uca Allah da onu əfv edib günahlarını bağışladı.

http://sunnah.global/hadeeth/az/show/3753